AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ

MƏDƏNİYYƏT ÜZRƏ ELMİ-METODİKİ
VƏ İXTİSASARTIRMA MƏRKƏZİ



# PROQRAM

UŞAQ MUSİQİ VƏ İNCƏSƏNƏT
MƏKTƏBLƏRİNİN

# VİOLİN

SİNFİ ÜÇÜN

**Azərbaycan Respublikası**
**Mədəniyyət Nazirliyi**

**Mədəniyyət üzrə Elmi-Metodiki**
**və İxtisasartırma Mərkəzi**

# PROQRAM

## UŞAQ MUSİQİ VƏ İNCƏSƏNƏT MƏKTƏBLƏRİNİN VİOLİN SİNFİ ÜÇÜN

**Bakı – 2024**

***Tərtibçilər:***

**Neymət Mürsəlov**

*Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin Təhlil, təlim və tədris şöbəsinin müdiri, Əməkdar artist*

**İlhamə Ağayeva**

*Bakı şəhər Niyazi adına 22 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru, Əməkdar müəllim*

**Gülnarə Seyidova**

*Bakı şəhər L. və M. Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şöbə müdiri*

**Rəyçilər:**

**Hökümə Əliyeva**

*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar müəllim*

**Fatimə İdyatulina**

*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Əməkdar müəllim*

***Redaktor:***

**Lalə Xəlilli**

*Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin aparıcı metodisti, Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı.*

# İZAHAT VƏRƏQƏSİ

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi sistemində fəaliyyət göstərən Uşaq musiqi və incəsənət məktəblərinin qarşısında duran vəzifələrin dairəsi geniş və rəngarəngdir. Uşaq musiqi və incəsənət məktəbləri gənc nəslə ümumi musiqi təhsili verməli, onları dünya musiqi mədəniyyəti xəzinələri, əmək, nizam-intizam, asudə vaxtlarını düzgün bölüşdürmək bacarığı ilə tanış etməli, Azərbaycan və xarici klassiklərin incəsənət nümunələri üzərində estetik zövqlərinin formalaşmasına kömək etməli, fəal musiqi dinləyiciləri yetişdirməlidir.

Mütəmadi olaraq Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən bu müəssissələrin tədris proqramlarına baxış keçirilir. Həmin proqramlara son dövrlərdə bu və ya digər musiqi alətləri üçün bəstələnmiş və yaxud tərtib edilmiş əsərlər daxil edilir ki, bu da şagirdlərin təkcə Azərbaycan bəstəkarlarının əsərləri ilə deyil, həmçinin bir sıra dünya xalqlarının musiqi incəsənəti nümunələri ilə tanış olmalarına imkan yaradır.

Violin fənninin tədrisi şagirdlərin (təhsilalanların) intellektual səviyyəsinin, həyata və musiqiyə baxışının tənzimlənməsi, musiqi savadına yiyələnməsi, alətdə ifa etmək bacarığının formalaşdırılması, klassik musiqiyə və musiqi yaradıcılığına marağın artırılması və onların solo, ansambl, orkestr ifasında zəruri olan bacarıq və vərdişlərə yiyələnməsinə şərait yaradır.

Violin fənninin tədrisində bir sıra tədris metodlarından istifadə olunur. İxtisas dərsləri həftədə 2 dəfə  fərdi qaydada keçirilir. Dərs müddəti 45 dəqiqədir. Dərs zamanı müəllim (təhsilverən) şifahi (danışaraq izah etmək), praktik (alətdə ifa edərək izah etmək), analitik (müqayisələr və ümumiləşdirmələrlə izah etmək), emosional (biliklərin, obrazların, bədii təəssüratların seçimi ilə izah etmək) tədris metodlarından istifadə edərək dərs prosesini qurmalıdır. Fərdi tədris metodu hər bir şagirdə (təhsilalana) daha dəqiq və psixoloji cəhətdən düzgün yanaşma tapmağa və ən uyğun tədris metodunu seçməyə imkan verir.

İxtisas müəlliminin qarşısında duran vəzifələri şagirdlərin (təhsilalanların) bilik səviyyəsini artırmaq və gənc musiqiçi (violinoçu) kimi yetişməsinə çalışmaq, onların dərslərdə müntəzəm iştirakının və dərslərə hazırlıqlı gəlməsinin təmin olunması məqsədilə valideynlə müntəzəm əlaqə saxlamaq, daima öz üzərində işləyərək şagirdə şəxsi nümunə göstərmək, sinif konsertləri təşkil etməkdən  ibarətdir.

İlk dərslərdən violin alətini seçən şagirdlər (təhsialanlar) üçün səs hasili ən vacib vəzifə  olaraq qalmalıdır. Keyfiyyətli tonu əldə etmək üçün ifaçı həddən artıq çox zaman, həmçinin bu problemin həllinə bütün zəkasını, zehnini və mənəvi konsentrasiyasını sərf etməyə hazır olmalıdır. Kamanı tutmaq, barmaqların təzyiqini tənzimləmək, biləkdən istifadə etmək kimi əsas məqamlar yalnız müəllimin izahatlarını qavramaq və mənimsəməklə əldə olunur. Gözəl səsə (tona) malik olmağın yeganə praktik yolu budur.

Musiqi əsərini ifa edərkən intonasiya, fraza, obraz, forma, dinamika, vibrasiyadan düzgün istifadə etmək lazımdır. Bu keyfiyyətlərin aşılanması üçün mütəmadi olaraq çalışmaq lazımdır. İxtisas müəllimi şagirdin (təhsilalanın) istedad dərəcəsini nəzərə alaraq musiqi-bədii və texniki inkişafını daima nəzarətdə saxlamalı, müasir Azərbaycan bəstəkarlarının əsərlərini repertuara əlavə etməlidir.

# İŞ PLANI

Təhsilin uğuru aydın, real və dəqiq müəyyən edilmiş məqsədlərdən asılıdır. Müasir musiqi pedaqogikası şagirdlərin (təhsilalanların) inkişafının planlaşdırılmasına böyük əhəmiyyət verir. İxtisas müəllimi müxtəlif istiqamətləri nəzərə alaraq hər şagird (təhsilalan) üçün iş planı tərtib edir.

Plan müəllim tərəfindən şagirdin fərdi xüsusiyyətləri haqqında fikirlərinə və onun musiqi inkişafının sistemli təhlilinə əsaslanmalıdır.

İş planın tərtib edilməsi musiqiçinin formalaşmasında və inkişafında böyük əhəmiyyət kəsb edir. İş planı – müəllim tərəfindən bütün tədris prosesinin sistematik şəkildə idarə edilməsi, şagirdin xüsusiyyətlərini, yaxın dövr üçün tapşırıqların əlaqəli xüsusiyyətlərini, iş üsullarını, repertuarını təmin edən xüsusi plandır.

Müəllim şagirdlə işləmək üçün tapşırıqların qoyulmasına çox məsuliyyətlə yanaşmalıdır. Düzgün seçilmiş musiqi materialı tapşırığın vaxtında və keyfiyyətli həllinə kömək edir. Həll edilməli olan problemi müəyyən etdikdən sonra müəllim onun aradan qaldırılması yollarını göstərməlidir.

Siniflər üzrə proqram tələblərinin vəzifəsi – bütün tədris materialının (ifaçılıq bacarıqları, ifaçılıq texnikası, repertuar, terminologiya və s.) təhsil dövrü üçün sadədən mürəkkəbə qədər paylanmasıdır.

Tapşırıqların ümumiləşdirilməsi yalnız 1-ci sinif şagirdləri üçün mümkündür. Bu zaman müəllim şagirdin musiqi qabiliyyətləri və imkanları haqqında tam təsəvvürə malik deyil. Ümumi tapşırıqlar kifayət qədər sadələşdirilmiş şəkildə tərtib edilə bilər:

- ifa aparatının (əllərin) qoyuluşu;
- not yazısının öyrənilməsi;
- əsas ifa texnikalarının öyrənilməsi;
- əsas musiqi qabiliyyətlərinin (ritm, eşitmə, yaddaş) inkişafı.

Repertuar seçərkən müəllim şagirdin fərdi imkanlarına və tədris ili ərzində qarşıya qoyulan iş məqsədlərinə əsaslanaraq əsərlərin sayını, mürəkkəblik səviyyəsini, onların üslub və janr xüsusiyyətlərini nəzərə almalıdır. Nəzərdə tutulan təxmini repertuar aralıq və yekun imtahanlarda (akademik konsertlərdə) ifa olunan əsərlərlə məhdudlaşmamalıdır. İş materialı fərdi dərs çərçivəsində musiqi fəaliyyətinin bütün növlərini əks etdirməlidir:

- şagirdin texniki imkanlarının inkişaf etdirmək (məşğələ, etüd və qammalar)
- bədii repertuar üzərində işləmək (pyeslər, iri həcmli əsərlər)

İş planın tərtib edilməsi pedaqoji işin çox mühüm mərhələsidir. Repertuarın uğurlu seçimi şagirdin uğuruna və əksinə, bununla bağlı buraxılan səhvlər arzuolunmaz nəticələrə səbəb ola bilər. Ona görə də planlar çox düşünülmüş şəkildə tərtib edilməlidir. Müəllim üçün plan yaratmaq — həqiqətən yaradıcı bir prosesdir.

Şagirdin iş planı cari tədris ili üzrə 1-ci və 2-ci yarımilliyin əvvəlində tərtib olunur. Fərdi iş planı təsdiq edildikdən sonra şagirdin fərdi vərəqəsinə yazılır və şöbə müdiri tərəfindən təsdiq edilir. Tədris ilinin nəticəsi kimi müəllim tərəfindən fərdi vərəqədə

şagirdin xarakteristikası (musiqi qabiliyyətinin səviyyəsi, işgüzarlığı və dərslərə münasibəti haqqında qısa təsvir) yazılır.

## Nəzarətin formaları və qiymətləndirmə sistemi

Tədris ili ərzində şagirdlərin akademik göstəricilərinə cari nəzarət üçün aşağıda qeyd olunan tədbirlər keçirilir:

1. Dinləmələr
2. Texniki dinləyişlər
3. Akademik dinləyişlər
4. Keçid və buraxılış imtahanı

Texniki dinləyişlər cari tədris ili üzrə 2 dəfə — noyabr və fevral aylarında keçirilir. Texniki məqbulda şagird (II-VI sinif) sinfə uyğun major və minor qamması, 1 etüd ifa etməlidir.

Akademik dinləyişlərdə 2 müxtəlif xarakterli pyes (onlardan biri Azərbaycan bəstəkarının əsəri olmalıdır) və iri həcmli əsər (Konsert, Sonata və ya Variasiyalar) ifa etməlidir.

Keçid imtahanları 7 illik təhsil sistemi üzrə IV sinif şagirdləri, 5 illik təhsil sistemi üzrə III sinif şagirdləri üçün keçirilir.

Buraxılış sinif şagirdləri üçün tədris ili ərzində qiymətləndirmə olmadan 3 dinləmə, dərs ilinin sonunda isə buraxılış imtahanı keçirilir.

Şagirdlərin akademik dinləyiş və imtahanlarda ifaçılıq səviyyəsinin qiymətləndirilməsi meyarları aşağıdakı qaydada ola bilər:

**5 «əla»**

Proqram bədii, obrazlı, düşünülmüş, texniki cəhətdən sərbəst şəkildə ifa olunur. Musiqi janrları bəstəkarların planına uyğun olaraq stilistik cəhətdən tərtib edilmişdir. Hər bir əsərin üslub xüsusiyyətləri və bədii obrazı dəqiq çatdırılır.

**4 «yaxşı»**

Proqram inamlı, ətraflı mətn işlənməsi ilə, lakin parlaq səhnə təqdimatı olmadan ifa olunur. Sürət mətndə göstərilənlərə yaxındır, texniki inkişafda mövcud çatışmazlıqlar səbəbindən texniki azadlığın olmaması mövcuddur. Proqramın icrası az təşəbbüslü, lakin savadlı, mənalıdır, burada pedaqoji iş eşidilir. Bədii problemləri başa düşərkən texniki, səs və mətn səhvlərinə yol verilir.

**3 «kafi»**

Proqram texniki cəhətdən azad deyil, kifayət qədər mənalı deyil, ritmik və səs itkiləri ilə ifa olunur.

**2 «qeyri kafi»**

Proqramın icrası qeyri-sabitdir, texniki və səs xətaları, eyni zamanda anlaşılmazlıqlar var.

**Qeyd:** Uşaq musiqi və incəsənət məktəbləri üçün tərtib olunan proqram 7 illik təhsil sistemi üzrə oxuyan şagirdlər üçün məqbul sayılır. Müəllim bu proqramı 5 illik təhsil sistemi üzrə oxuyan şagird üçün elə tərtib etməlidir ki, 7 illik təhsil sistemi üçün nəzərdə tutulmuş materialı 5 ildə yerinə yetirə bilsin. Bu zaman proqram və repertuarın aşağıda göstərilən sistemə uyğun olaraq tərtib olunması məsləhət görülür.

| **7 illik təhsil sistemi** | **=** | **5 illik təhsil sistemi** |
|---|---|---|
| **I – II sinif** | **=** | **I sinif** |
| **III – IV sinif** | **=** | **II sinif** |
| **V sinif** | **=** | **III sinif** |
| **VI sinif** | **=** | **IV sinif** |
| **VII sinif** | **=** | **V sinif** |

# QISA METODİKİ GÖSTƏRİŞLƏR

## ALƏTİN SEÇİLMƏSİ

İlk növbədə alətin düzgün ölçüsünü seçmək üçün şagirdin fiziki keyfiyyətlərinə diqqət yetirmək lazımdır. Düzgün seçilmiş alət yeni başlayan musiqiçilər üçün xüsusi əhəmiyyət kəsb edir. Çox böyük və ya kiçik violindən istifadə etmək səhv vərdişlər formalaşdıra bilər və ifa zamanı narahatlıq yarada bilər. Violinin ən dəqiq ölçüsü qolun uzunluğuna uyğun seçilməlidir. Şagirdin ifa aparatının formalaşması (əllərin qoyuluşu) bir sıra amillərə əsaslanır. Bu amillərə şagirdin fiziki qabiliyyəti, əllərinin, boynunun, döş qəfəsinin, barmaqlarının quruluşu və s. aiddir.

Violin alətində əsas hədəf aydın, ifadəli və dolğun səsə malik olmaqdır. Səsin gözəlliyi anlayışına onun hamarlığı, cəlbedici tembri, o cümlədən onun ən mühüm komponenti — vibrato daxildir. Səsin gözəlliyinə nail olmaq əsasən şagirdin istedadından, səsi dinləmək və idarə etmək bacarığından, bədii zövqündən asılıdır. Səsin formalaşması və musiqi alətində hasili bir sıra xüsusi hərəkətlərin yerinə yetirilməsini tələb edir ki, bunların birləşməsi texnika adlanır. Texnika — ifaçının özünəməxsus dilidir. Şagirdin texnikası nə qədər zəngin olarsa, musiqi düşüncəsini bir o qədər dərindən, aydın və inandırıcı şəkildə çatdırmağa nail olar.

## QAMMALAR

Qamma – ümumi texniki bacarıqların ardıcıl, sistematik toplanması və müəyyən bir sənət əsərinin mürəkkəb epizodlarının hazırlanması və təkmilləşdirilməsi üçün istifadə edilə bilən bir məşqdir. Qammaları həm sol, həm də sağ əl texnikasını inkişaf etdirmək və hər iki əlin hərəkətlərini əlaqələndirmək üçün işləmək lazımdır. Xüsusilə intonasiya, səs və ritmi bərabərləşdirmək, həmçinin pozisiyaları mənimsəmək və keçidləri hamarlaşdırmaq üçün faydalıdır. Qammaları müxtəlif ştrix variantları ilə öyrənmək çəldlik, çeviklik və müxtəlif ifaçılıq bacarıqlarını inkişaf etdirir. Qeyd etmək lazımdır ki, qamma üzərində işləyərkən yalnız sağ və sol əl texnikasını təkmilləşdirmək deyil, həm də onun

bədii dəyərini, səs və obrazlı ifadəliliyini dərk etmək vacibdir. Belə münasibət ifa edilən musiqi əsərlərində bədii problemləri bacarıqla həll etməyə, onların məzmununu çatdırmağa imkan verəcək.

**İNTONASİYA VƏ ETÜDLƏR ÜZƏRİNDƏ İŞ**

İntonasiya violin ifaçılığının əsas problemlərindən biridir. İntonasiya üzərində iş sadə mahnıların oxunması ilə başlayır. Təmiz intonasiyaya və yaxşı səsə nail olmaq – şagirdin ifaçılıq məharətinin formalaşması üçün əsas şərtdir.

Etüdlər – bədii məzmunu olmayan texniki əsərlərdir. Etüdlər ifaçılıq çətinliklərinin həllinə diqqət yetirməyə imkan verir. Səs keyfiyyəti üzərində işləmək, hətta ən elementar texniki hissələri təkrarlamaq – bütün bunlar texniki çətinlikləri uğurla aradan qaldırmağa kömək edir. Etüdlərin məqsədi mövcud olan texniki problemlərin həllinə xüsusi diqqət yetirməkdir.

## VİOLİN ŞTRİXLƏRİ

### *Detaşé (Detache)*




***"Détaché"*** ştrixi kamanın növbə ilə yuxarı və aşağı istiqamətdə hərəkəti ilə hər notun ayrı-ayrı (istiqamətdə) ifa edilməsini nəzərdə tutur. *"Détaché"* ştrixində notlar ayrı-ayrı istiqamətdə ifa olunması ilə birgə, eyni zamanda, mümkün qədər bitişik, qovuşuq və ahəngdar ifa edilməlidir. *"Détaché"* ən çox istifadə edilən ştrixlərdən biridir.
Bu ştrix müxtəlif templərdə ifa oluna bilər və bu səbəbdən ştrixin bədii təsir əhəmiyyəti olduqca genişdir.

### *Martele (Martelé)*




*"Martele"* ştrixi (hərfi mənası – "nişanlayaraq") - kəskin, sərt səs və həmin səsin uzunluğuna bərabər olan pauzadan ibarət qırıq ştrixdir. *"Détaché"* ştrixi kimi *"martelé"* ştrixi də kamanın növbə ilə yuxarı və aşağı istiqamətli hərəkətlərlə ifa edilir.
*"Martelé"* ştrixi cəsarət, mərdlik, igidlik, qəhrəmanlıq, rəşadət kimi bədii ifadəlik xüsusiyyətlərini aşkarlayır və qeyd edir.

### *Viotti ştrixi*




İlk dəfə görkəmli italyan violin ifaçısı Viotti tərəfindən tətbiq edilmişdir. Onun adı ilə adlandırılmış bu ştrix kamanın bir istiqamətdə hərəkəti ilə ifa edilən qabarıq (qeyd olunmuş) *"détaché"* və vurğulu (aksentli) *"martelé"* ştrixlərinin ardıcıllığından ibarətdir.
*"Viotti ştrixi"* adətən inkişaf tipli epizodlarda tətbiq edilir. Tempdən, nüansdan və epizodun xasiyyətindən asılı olaraq *"Viotti ştrixi"* bütöv kamanla və ya kamanın müəyyən hissəsi ilə ifa olunur. Səslərarası pauza, səslərin ayrılma dərəcəsi də müxtəlif ola bilər.

### *Leqàto (Legato)*




*"Legato"* ştrixi kamanın bir istiqamətdə hərəkəti zamanı bir neçə səsin əlaqəli ifasını nəzərdə tutur. Legato ən geniş yayılmış ifa üsullarındandır. Bu ştrix violin alətinin əsas mahiyyətini – melodiyanı ahəngdar, ifadəli və rəvan ifa etmək imkanını açıqlayır.

### *Stakkàto (Staccato)*




Mahiyyət etibarilə bu ştrix kamanın bir istiqamətdə (yuxarı və ya aşağı) hərəkəti zamanı *martelé* ştrixi ilə ifa olunan səs ardıcıllığını xatırladır.
*"Staccato"* ştrixi virtuoz violin ədəbiyyatında geniş yayılmışdır.

### *Spikkato (Spiccato)*



*"Spiccato"* ştrixi kamanın simə atılması və ondan geri sıçraması nəticəsində əmələ gələn ən geniş yayılmış sıçrayan ştrixdir. *"Spiccato"* ştrixi müxtəlif sürətlə ifa oluna bilər.

## *Sotiyye (Sautillé)*




*"Sautillé"* ştrixi xasiyyətinə görə iti templi *spiccato* ştrixini xatırladır.
Lakin bu ştrixlərin ifa tərzi fərqlidir. Belə ki, *"sautillé"* ştrixinin ifası zamanı kamanın çubuğu elastikliyi sayəsində və kamanın hərəkət istiqamətini dəyişəndə əmələ gələn sim titrəyişi nəticəsində sanki özü simdən geri sıçrayır.
*"Sautillé"* ştrixi çox sürətli templərdə ifa edilir.

## APPLİKATURANIN SEÇİLMƏSİ

Applikatura (latınca applicare – tətbiq etmək, təyin etmək) musiqi alətində ifa edərkən barmaqların növbələşməsinin yeri və sırasıdır.

Violində ifa edərkən applikaturanın düzgün seçimi ifadə, dinamika, səs və ritm tələblərinə tabe olur. Musiqi əsəri üzərində işləyərkən təkcə rahatlığı ilə deyil, həm də bədii nöqteyi-nəzərdən əsaslandırılmış applikaturanın seçilməsi vacibdir.

## BİRİNCİ SİNİF

## İLLİK TƏLƏBAT

Alətlə ümumi tanışlıq. Violin və kamanın hissələrinin adlarının mənimsənilməsi.
İfa aparatının (əllərin qoyuluşu) əsasları, musiqi mətni ilə tanışlıq, ən sadə dinamik işarələr, ştrix və applikatura variantlarının öyrənilməsi.
Birinci pozisiyanın mənimsənilməsi.
Səs keyfiyyəti, intonasiya, ritm üzərində iş, musiqi eşitmə qabiliyyətinin inkişafı.
Bütün kaman və onun müxtəlif hissələrində detaşe ştrixi ilə ifa etmək bacarığı, kamanın düzgün bölünməsi, kamanda 4 nota qədər legato məşğələləri, simdən simə keçidlər üzərində iş.

Sol əl üçün müxtəlif məşğələlər, xalq melodiyaları və sadə pyeslərin ifası.

**I yarımildə** proqramda verilən təxmini repertuardan 5 – 6 kiçik pyes, 5 – 6 etüd ,1 oktavalı Re major, Lya major, Sol major qammaları (detaşe və 2 leqato ştrixləri ilə) və 2 növ arpecio keçilməlidir.

**II yarımildə** proqramda verilən təxmini repertuardan 7 – 8 kiçik pyes, 6 – 7 etüd, 2 oktavalı Sol major qamması (detaşe, 2, 4 legato və onların növbələşməsi ilə) və 3 növ arpecio, 1 iri həcmli əsər keçilməlidir.

## TƏXMİNİ REPERTUARIN SİYAHISI

### ETÜDLƏR

| | |
|---|---|
| Seçilmiş etüdlər I dəftər | |
| K. Rodionov | “Yeni başlayanlar üçün etüdlər” |

## BƏDİİ MƏZMUNLU ƏSƏRLƏR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| A. Rzayev | Top – top |
| Z. Bağırov | Romans |
| S. Rüstəmov | Yağdı yağışlar |
| Azərbaycan xalq rəqsi | Cığcığa |
| S. Rüstəmov | Sözsüz mahnı |
| M. Maqomayev | Marş |
| Ə. Abbasov | Nəğmə |

### XARİCİ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| A. Komarovski | Kiçik mahnı |
| D. Kabalevski | Xorovod |
| D. Şostakoviç | Yaxşı gün |
| İ. Haydn | Mahnı |
| | Andante |
| İ. Brams | Petruşka |
| J. Lülli | Mahnı |
| Q. Persel | Ariya |
| Q. Muffat | Laylay |
| L. Bethoven | Surok |
| | Xalq rəqsi |
| L. Bekman | Şam ağacı |
| L. Dunayevski | Laylay |
| M. Magidenko | Xoruz |
| M. Krasev | Top – top |
| N. Metlov | Beşik mahnısı |

| | |
|---|---|
| N. Baklanova | Beşik mahnısı |
| | Xorovod |
| N. Rimski-Korsakov | Mahnı (“May gecəsi” operasından) |
| N. Mackay | Ça-ça-ça |
| V. Motsart | Alleqretto |
| | May mahnısı |
| | Laylay |
| | Vals |
| V. Kalinnikov | Juravel |
| Y. Şaporin | Laylay |

## İRİ HƏCMLİ ƏSƏRLƏR

| | |
|---|---|
| A. Komarovski | Konsert № 3, II hissə |
| G. Hendel | Variasiyalar |
| O. Ridinq | Konsert h moll, I hissə |

## AKADEMİK DİNLƏYİŞLƏR

**I yarımildə (yanvar) keçirilən akademik dinləyişin tələbatı:**

Major qamması, 2 növ arpecio;
2-3 kiçik pyes.

**II yarımildə (iyun) keçirilən akademik dinləyişin tələbatı:**

Major və minor qamması, 2 növ arpecio;
1 etüd, 1 pyes, iri həcmli əsər.

---

***Qeyd:*** *Müəllimin mülahizəsinə görə iri həcmli əsər 2 müxtəlif xarakterli pyeslə əvəz oluna bilər.*

## II SİNFƏ KEÇİD ÜÇÜN TƏXMİNİ PROQRAMLAR

**I variant**

N.Baklanova – “Mazurka”

N. Baklanova – “Romans”

Etüd № 16 (Seçilmiş etüdlərdən)

**II variant**

Kaçurbina – “Kukla ilə ayı”

N. Baklanova – “Beşik mahnısı”

Etüd № 19 (Seçilmiş etüdlərdən)

**III variant**

O.Ridinq – Konsert h moll I hissə

Z.Bağırov – Romans

Etüd № 25 (Seçilmiş etüdlərdən)

## İKİNCİ SİNİF

## İLLİK TƏLƏBAT

İfa aparatı (əllərin qoyuluşu), intonasiya, səs hasili və ritm üzərində işin davamı.

Detaşe ştrixi, bir kamana 8 not legato və keçilən ştrixlərin növbələşməsi.

Martele ştrixinin öyrənilməsi.

Kamanın iki sim boyunca hərəkəti ilə tanışlıq. II və III pozisiyanın mənimsənilməsi.

**I yarımildə** müxtəlif ştrix növlərinə aid 5 – 6 etüd, müxtəlif xarakterli 5 – 6 pyes, 2 oktavalı Lya major və lya minor qammaları (keçilən ştrixlərlə),3 növ arpecio,1 iri həcmli əsər.

**II yarımildə** müxtəlif ştrix növlərinə aid 5 – 6 etüd, müxtəlif xarakterli 5 – 6 pyes, 2 oktavalı Si major və si minor qammaları (keçilən ştrixlərlə), 3 növ arpecio, 1 iri həcmli əsər.

**Tədris ili ərzində aşağıda qeyd olunanlara diqqət yetirmək vacibdir:**

- I, II, III pozisiyanın diapazonu
- Detaşe, 2, 4, 8 legato, martele ştrixi
- Arpecioların (üçsəslilər) 3 legato ifa olunması
- Detaşe, legato, martele ştrixlərinə və bu ştrixlərin növbələşməsinə dair etüdlərin ifası.

## TƏXMİNİ REPERTUARIN SİYAHISI

## ETÜDLƏR

Seçilmiş etüdlər I və II dəftər

| | |
|---|---|
| F. Volfart | Etüdlər |
| Q. Kayzer | Etüdlər |

## BƏDİİ MƏZMUNLU ƏSƏRLƏR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| F. Əmirov | Noktürn |
| Q. Qarayev | Fikirli |
| Niyazi | Laylay |

### XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| A. Qreçaninov | Şən oğlan |
| D. Kabalevski | Polka |
| | Etüd |
| D. Şostakoviç | Qavot |
| | Şarmanka |
| E. Qriq | Andantino |
| | Xalq mahnısı |
| | Menuet |
| G. Hendel | Prelüd |
| | Burre |
| İ.S. Bax | Marş |
| İ. Qasse | Burre və Menuet |
| J. Lülli | Qavot və Menuet |
| K. Veber | Ovçuların xoru |
| K. Qlük | Şən xorovod |
| L.V. Bethoven | Kontrdans |
| M. Qlinka | Qızların xoru (“İvan Susanin” operasından) |
| | Polka |
| N. Baklanova | Melodiya və etüd |
| N. Mackay | Tanqo |
| O. Qordeli | Gürcü rəqsi |
| P. Çaykovski | At oyunu |
| P. Boqoslavski | Qəmgin hekayə |
| R. Şuman | Şən kəndli |
| S. Prokofyev | Sözsüz mahnı |
| | Marş |
| V. Motsart | Andantino |
| | Polonez |

## İRİ HƏCMLİ ƏSƏRLƏR

| | |
|---|---|
| A. Yanşinov | Konsertino |
| A. Komarovski | Konsert № 3, II hissə |
| A. Vivaldi | Konsert G Dur |
| G. Teleman | Konsertino |

| | |
|---|---|
| O. Ridinq | Konsert h moll, III hissə |
| | Konsert G Dur, I hissə |
| L. Bethoven | Sonatina |
| N. Baklanova | Sonatina |
| | Konsertino Alleqro |

## ANSAMBL ƏSƏRLƏRİ

| | |
|---|---|
| D. Şostakoviç | Yaxşı gün |
| V.A. Motsart | Menuet |
| J. Lülli | Rondo |

## TƏDRİS İLİ ƏRZİNDƏ KEÇİRİLƏN TEXNİKİ DİNLƏYİŞLƏR

Noyabr ayı – qamma, etüd və musiqi terminləri.
Mart ayı – qamma, etüd və musiqi terminləri.

## AKADEMİK DİNLƏYİŞLƏR

**I yarımildə (yanvar) keçirilən akademik dinləyişin tələbatı:**

2 müxtəlif xarakterli pyes;
1 iri həcmli əsər.

**II yarımildə (iyun) keçirilən akademik dinləyişin tələbatı:**

2 müxtəlif xarakterli pyes;
1 iri həcmli əsər.

---

***Qeyd:*** *Müəllimin mülahizəsinə görə 2 müxtəlif xarakterli pyes 1 etüd və 1 pyeslə əvəz oluna bilər.*

## III SİNFƏ KEÇİD ÜÇÜN TƏXMİNİ PROQRAMLAR

**I variant**

Etüd № 32 (Seçilmiş etüdlər I dəftər)

Niyazi – Laylay

G. Hendel – Burre

L. Bethoven – Sonatina

**II variant**

Etüd № 42 (Seçilmiş etüdlər I dəftər)

Q. Qarayev – Fikirli

İ.S. Bax – Marş

O. Ridinq – Konsert h moll, I hissə

**III variant**

Etüd № 62 (Seçilmiş etüdlər I dəftər)

Niyazi – Laylay

L. Bethoven – Kontrdans

A. Yanşinov – Konsertino

## ÜÇÜNCÜ SİNİF

## İLLİK TƏLƏBAT

İntonasiya, ritm və  səs hasili üzərində işin davam etdirilməsi.

Detaşe, legato, martele ştrixlərinin daha əraflı mənimsənilməsi və onların növbələşməsi.

Sadə ikili notlarla tanışlıq.

I pozisiyada sadə akkordlar.

Trelin ifa olunmasına hazırlıq.

Flajoletlər və onların növləri.

Vibrasiya bacarıqlarını mənimsəmək üçün məşğələlər.

**I yarımildə** müxtəlif ştrix növlərinə aid 5 – 6 etüd, müxtəlif xarakterli 5 – 6 pyes, 2 oktavalı Sol major və sol minor (pozisiyaya keçidlə, keçilən ştrixlərlə), 1 iri həcmli əsər.

**II yarımildə** ştrix növlərinə aid 5 – 6 etüd, müxtəlif xarakterli 5 – 6 pyes, 2 oktavalı Lya major və lya minor, Si bemol major və si bemol minor və ya Do major və do minor qammaları (pozisiyaya keçidlə, keçilən ştrixlərlə),1 iri həcmli əsər.

**Tədris ili ərzində aşağıda qeyd olunanlara diqqət yetirmək vacibdir:**

- 2 oktavalı major və minor qammalarının II və III pozisiyaya keçidlə ifası;
- 2 oktavalı major və minor qammalarını 4, 8, 16 legato ifa etmək vərdişi;
- 2 oktavalı major və minor qammalarının marcato, martele, staccato ştrixləri ilə ifa etmək vərdişi;
- 2 oktavalı major və minor qammalarında tonika üçsəslisi, sekstakkord  və kvartsekstakkordların ifası;
- Tədris ili ərzində mənimsənilən ştrix növlərinə və pozisiyaya keçidlərə dair etüdlər.

**Azərbaycan ladları ilə tanışlıq**

"Rast" ladı (II yarımil).

Baxın: Üzeyir Hacıbəyli, Azərbaycan xalq musiqisinin əsasları: Musiqi məktəbləri və texnikumları üçün adaptasiya olunmuş dərs vəsaiti / Tərtibçi: – Tərlan Seyidov. – Bakı: E. L., 2010, s.8.

Dərs vəsaitinin elektron versiyası: https://www.anl.az/el/musiqi_edebiyyati/kitab/2014/7312.pdf.

## TƏXMİNİ REPERTUARIN SİYAHISI

### ETÜDLƏR

Seçilmiş etüdlər I və II dəftər

| | |
|---|---|
| F. Volfart | Etüdlər |
| Q. Kayzer | Etüdlər (I dəftər) |
| N. Baklanova | Etüdlər |

## BƏDİİ MƏZMUNLU ƏSƏRLƏR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| Ü. Hacıbəyli | Nigarın ariyası ("Koroğlu" operasından) |
| Ə. Bədəlbəyli | Marş ("Qız qalası" operasından) |
| Q. Qarayev | Fikirli |
| | Fırfıra |
| | Kiçik vals |
| | Marş |
| S. Ələsgərov | Balaca çoban |
| S. Rüstəmov | Marş |
| Z. Bağırov | Romans |

### XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| A. Qedike | Ağır vals |
| B. Dvarionas | Prelüd |
| D. Şostakoviç | Qəmgin mahnı |
| İ.S. Bax | Qavot |
| J.C. Bononçini | Rondo |
| Q. Mari | Qədim üslubda ariya |

| | |
|---|---|
| L. Daken | Riqodon |
| M. Qlinka | Qızların xoru (“Ruslan və Lyudmila” operasından) |
| | Melodik vals |
| N. Rakov | Hekayə |
| | Vokaliz |
| N. Mackay | Vals |
| | Tanqo |
| N. Levi | Tarantella |
| P. Çaykovski | Uşaq albomu |
| | Qədim fransız mahnısı |
| | Şarmanşik |
| | Neapolitan mahnısı |
| R. Şuman | Pyes (“Uşaq albomundan”) |
| Y. Haydn | Menuet |

## İRİ HƏCMLİ ƏSƏRLƏR

| | |
|---|---|
| A. Qlazunov | Sonatina a moll |
| A. Komarovski | Ukrayna xalq mahnıları əsasında variasiyalar “Vışli vo pole kosari” |
| A. Vivaldi | Konsert G Dur, I hissə |
| A. Yanşinov | Konsertino |
| F. Zeyts | Konsert A Dur ( I, II, III hissələr) |
| G. Teleman | Konsertino |
| J. Şaye | Başlanğıc konsertlər (12 asan pyes) |
| V. Novotnıy | Mövzu və variasiyalar |
| L. Bethoven | Sonatina |

## ANSAMBL ƏSƏRLƏRİ

| | |
|---|---|
| A. Onegger | Duet (“Kiçik süita”dan) |
| D. Şostakoviç | Qavot |
| Çex xalq mahnısı | Balaca çoban |
| S. Prokofyev | Marş (“Yay günü” süitasından) |
| V.A. Motsart | Pantomima |

## TƏDRİS İLİ ƏRZİNDƏ KEÇİRİLƏN TEXNİKİ DİNLƏYİŞLƏR

Noyabr ayı – qamma, etüd və musiqi terminləri.
Mart ayı – qamma, etüd və musiqi terminləri.

## AKADEMİK DİNLƏYİŞLƏR

**I yarımildə (yanvar) keçirilən akademik dinləyişin tələbatı:**

2 müxtəlif xarakterli pyes;
1 iri həcmli əsər.

**II yarımildə (iyun) keçirilən akademik dinləyişin tələbatı:**

2 müxtəlif xarakterli pyes;
1 iri həcmli əsər.

---

***Qeyd:*** *Müəllimin mülahizəsinə görə 2 müxtəlif xarakterli pyes 1 etüd və 1 pyeslə əvəz oluna bilər.*

## IV SİNFƏ KEÇİD ÜÇÜN TƏXMİNİ PROQRAMLAR

**I variant**

Etüd № 42 (Seçilmiş etüdlər II dəftər)

Ü. Hacıbəyli – Nigarın ariyası ("Koroğlu" operasından)

L. Daken – Riqodon

G. Teleman – Konsertino

**II variant**

Etüd № 15 (Seçilmiş etüdlər II dəftər)

Q. Qarayev – Kiçik vals

Q. Mari – Qədim üslubda ariya

A. Yanşinov – Konsertino

**III variant**

Etüd № 17 (Seçilmiş etüdlər II dəftər)

Ə. Bədəlbəyli – Marş ("Qız qalası" operasından)

İ.S. Bax – Qavot

A. Vivaldi – Konsert G Dur, I hissə

## DÖRDÜNCÜ SİNİF

## İLLİK TƏLƏBAT

İntonasiya, səs dinamikası, ritm üzərində işin davamı.
Stakkato ştrixi ilə tanışlıq.
İlk 5 pozisiyanın öyrənilməsi və müxtəlif keçid növləri ilə tanışlıq.
Akkordların öyrənilməsi.
Vibrasiya bacarıqları.

**I yarımildə** müxtəlif ştrix növlərinə aid 5 – 6 etüd, müxtəlif xarakterli 5 – 6 pyes, 3 oktavalı Sol major və sol minor və ya Lya major və lya minor (keçilən ştrixlərlə), 5 növ arpecio, 1 iri həcmli əsər.

**II yarımildə** ştrix növlərinə aid 5 – 6 etüd, müxtəlif xarakterli 5 – 6 pyes, 3 oktavalı Lya major və lya minor və ya Si bemol major və si bemol minor qammaları (keçilən ştrixlərlə), 5 növ arpecio, 1 iri həcmli əsər.

**Tədris ili ərzində aşağıda qeyd olunanlara diqqət yetirmək vacibdir:**

- 2 və 3 oktavalı major və minor qammalarının I, II, III pozisiyalardan başlayaraq müxtəlif ştrixlərlə ifa edilməsi (keçidlə və keçidsiz);
- 2 və 3 oktavalı major və minor qammalarını 4, 8, 12, 24 legato ifa etmək vərdişi;
- 2 və 3 oktavalı major və minor qammalarının marcato, martele, staccato ştrixləri ilə ifa etmək vərdişi;
- 2 və 3 oktavalı major və minor qammalarında tonika üçsəslisi, sekstakkord və kvartsekstakkordların 3, 9 legato ifası;
- Tədris ili ərzində mənimsənilən ştrix növlərinə və pozisiyaya keçidlərə dair etüdlər.

### Azərbaycan ladları ilə tanışlıq

"Şur" ladı (I yarımil).

"Segah" ladı (II yarımil).

Baxın: Üzeyir Hacıbəyli, Azərbaycan xalq musiqisinin əsasları: Musiqi məktəbləri və texnikumları üçün adaptasiya olunmuş dərs vəsaiti / Tərtibçi: – Tərlan Seyidov. – Bakı: E. L., 2010, s.11, 15.

Dərs vəsaitinin elektron versiyası:
https://www.anl.az/el/musiqi_edebiyyati/kitab/2014/7312.pdf

## TƏXMİNİ REPERTUARIN SİYAHISI

## ETÜDLƏR

| | |
|---|---|
| Seçilmiş etüdlər II dəftər | |
| F. Volfart | Etüdlər |
| Q. Kayzer | Etüdlər (I və II dəftərlər) |

| | |
|---|---|
| N. Baklanova | Etüdlər |
| R. Kreyser | 42 etüd |

## BƏDİİ MƏZMUNLU ƏSƏRLƏR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| Ü. Hacıbəyli | Əsgərin ariyası ("Arşın mal alan" musiqili komediyasından) |
| Q. Qarayev | Kiçik vals |
| T. Quliyev | Rəqs |
| | Prelüd |
| S. Rüstəmov | Rəqs |
| Ə. Abbasov | Aşıqsayağı |
| M. İsrafilzadə | Eleqiya |
| A. Rzayev | Beşik mahnısı |

### XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | |
|---|---|
| A. Gurci | Giarda |
| C. Perqolezi | Sisiliana |
| | Ariya |
| D. Şostakoviç | Rəqs |
| E. Cenkinson | Rəqs |
| İ.S. Bax | Rondo |
| İ. Brams | Beşik nəğməsi |
| K. Qlük | Burre |
| L. Bethoven | Baqatel |
| L. Bokkerini | Menuet |
| L. Ober | Presto |
| | Tamburin |
| M. Qlinka | Mazurka |
| | Vida valsı |
| M. Poplavski | Polonez |
| P. Çaykovski | Qəmgin mahnı |
| | Mazurka |
| | Vals |
| R. Qlier | Ariya |
| | Prelüd |
| S. Prokofyev | Qavot ("Klassik simfoniya"dan) |

### İRİ HƏCMLİ ƏSƏRLƏR

| | |
|---|---|
